

**Əziz dostlar və həmkarlar!**

Akademik Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun rəhbərliyi və kollektivi adından "Azərbaycan neft təsərrüfatı" jurnalının 120 illik yubileyi münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Neft sahəsində nəinki Azərbaycanda, həm də bütün dünyada qocaman mətbuat orqanlarından olan jurnalınız 120 il ərzində neft sənayesinin problemlərini və nailiyyətlərini, bu sahədə baş verən elmi-texniki inkişafı yüksək peşəkarlıqla oxucularına çatdırmışdır.

Jurnalınızın neft sahəsində tanınmış, yüksəkixtisaslı kadrlar nəslinin yetişdirilməsində də rolu böyükdür.

Jurnalın fəaliyyəti dövründə onun səhifələrində çox tanınmış alim, mütəxəssis və istehsalat rəhbərlərinin elmi-texniki məqalələri dərc olunmuş və bu gün də dərc olunmaqdadır.

Təqdirəlayiq haldır ki, bizim institutun kollektivi Sizinlə həmişə sıx dostluq və əməkdaşlıq münasibətlərindədir. Bir çox alimlərimiz uzun illər ərzində jurnalınızın redaksiya heyətinin üzvü, məqalələrin rəyçiləridirlər. Eyni zamanda əməkdaşlarımızın çoxlu sayda məqalələri jurnalınızda dərc olunmuşdur.

Biz uzun illik səmərəli birgə fəaliyyətimizi çox yüksək qiymətləndiririk və ümidvarıq ki, gələcəkdə də əməkdaşlığımız davam edəcəkdir.

Bir daha Sizi bu əlamətdar yubileyiniz münasibətilə ürəkdən təbrik edir, kollektivinizin hər bir üzvünə cansağlığı, səadət və işlərinizdə yeni-yeni uğurlar arzu edirik.

**Hörmətlə,**
**NKPİ-nin direktoru, akademik**
**Vaqif Abbasov**

Azərbaycan Neft Təsərrüfatı